İtaliya Respublikasının Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olduğunu vurğulayan nazir son illər ölkələrimiz arasında təhsil sahəsində mövcud olan əlaqələrdən söhbət açıb, bu əlaqələrin inkişaf etdirilməsi istiqamətində bir sıra məsələlər haqqında danışıb. Əsasən universitetlər arasında əməkdaşlığın inkişaf etdiyini bildirən Misir Mərdanov təhsil sahəsində digər əlaqələrin genişləndirilməsinə ehtiyac duyulduğunu diqqətə çatdırıb, Azərbaycanda italyan dilinin tədrisi məsələsinə toxunub və bu məsələlər üzrə qonağın fikrini öyrənmək istədiyini qeyd edib. Nazir, həmçinin “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində İtaliyada 4 azərbaycanlı tələbənin təhsil aldığını bildirib. Bu göstəricinin aşağı olduğunu diqqətə çatdıran təhsil naziri qeyd olunan istiqamətdə işlər aparılmasının vacibliyini vurğulayıb.

İtaliya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Mario Baldi təhsil naziri Misir Mərdanova səmimi qəbul üçün minnətdarlığını bildirib. Səfir ölkələrarası əlaqələrin son illər daha da inkişaf etdirilməsindən söz açıb və bu əlaqələrdə təhsil sahəsinə xüsusi yer ayrılmasının vacibliyi məsələsində Misir Mərdanovu dəstəklədiyini bildirib. Mario Baldi ölkəsinin təhsil sistemi barədə geniş məlumat verib, məktəbəqədər, ibtidai, orta, peşə təhsili sahələri üzrə aparılan islahatlar barədə ətraflı danışıb. İtaliyada qədim və nüfuzlu ali məktəblərin fəaliyyət göstərdiyini diqqətə çatdıran qonaq ölkəsində memarlıq, arxeologiya, mədəni irs, tibb, hüquq, mühəndislik, dizayn, iqtisadiyyat və digər sahələrin xüsusi inkişaf etdiyini, əcnəbi tələbələrin burada təhsil almasını asanlaşdırmaq məqsədilə bir çox proqramların ingilis dilində tədris olunduğunu diqqətə çatdırıb. Azərbaycanda italyan dilinin tədrisi məsələsinə toxunan qonaq ilkin mərhələ kimi Azərbaycanın orta məktəblərində italyan dilinin tədrisinin məqsədəuyğun olduğunu bildirib. Eyni zamanda qonaq bundan sonra İtaliyada təhsil alan azərbaycanlı tələbələrə diqqətin daha da artırılacağını nəzərə çatdırıb.

Qonağa təşəkkürünü bildirən təhsil naziri ilk olaraq Bakıdakı bir neçə məktəbdə italyan dilinin tədrisinə başlanmasının zəruri olduğunu deyib. İyunun 2-dən 9-dək İtaliya Respublikasına rəsmi səfərinin planlaşdırıldığını diqqətə çatdıran Misir Mərdanov səfər zamanı bu məsələlərin geniş müzakirə olunacağını bildirib.

Görüşdə tərəflər Azərbaycan ilə İtaliya universitetləri arasında əməkdaşlığın inkişaf etdirilməsi, eləcə də qeyd olunan digər məsələlərlə bağlı müvafiq işlərin aparılması istiqamətində müzakirələr aparıblar.